**Məşhur adamlar—Əvvəl və indi**
**Rüstəm İbrahimbəyov**
**Novel və ssenari yazıçısı, jurnalist (1939- )**

Mənbə: Azerbaijan İnternational jurnalı - Aİ 7.4 (Qış 1999)
© Azerbaijan İnternational

Rüstəm İbrahimbəyov Azərbaycanın ən görkəmli rejissorlarından biridir. Hazırda o Azərbaycan Rejissorlar İttifaqının və keçmiş Sovet Respublikalarının rejissorlarının təmsil olunduğu Rejissorlar İttifaqları Konfederasiyasının (RİK) sədridir.

Rüstəm 1992-ci ildə ən yaxşı əcnəbi film kimi Oskar mükafatına layiq görürən "Edenə yaxın" filmi də daxil olmaqla 30-dan çox filmin ssenarisini yazmışdır. Ona beynəlxalq arenada əsl mənada ad-san gətirən işi isə ən yaxşı əcnəbi filmi kimi 47-ci Beynəlxalq Kann Kino Festivalında (1994) "Qrand Pri" və Akademik Mükafata layiq görülən "Günəşdən usanmışlar" filmi oldu. Avropa və Amerika kinoları müxtəlif kateqoriyalara əsaslandığından bu mükafat çox nadir mükafatdır.

Amerika Film Akademiyasının üzvü seçilən Rüstəm bu Akademiyada ilk azərbaycanlıdır.

**Sizcə uşaqlığınızda maraqlandığınız və başınıza gələn hansı hadisələr sizin həyat yolunuzun və karyeranızın formalaşmasında mühüm rol oynamışdır?**

Şübhəsiz bu gün bu peşənin sahibi olmağımın səbəbi uşaqlığımdır. Kimsə öz uşaqlığına bağlı deyilsə, o heç vaxt yazıçı, rejissor yaxud başqa sənət sahibi ola bilməz. Lakin uşaqlıqda baş verən və karyeramı formalaşdıran hər hansı bir hadisənin adını çəkə bilmərəm.

Əslində cavanlıqda heç ağlıma gəlməzdi ki, nə vaxtsa yazıçı olacağam.Təbii, kitablar həyatımın ayrılmaz hissəsi idi. Çox oxuyurdum. Valideynlərim də mütailə etməyi sevərdi. Anamın haqqında hərarətlə danışdığı kitablar yadımdadır.

Bir dəfə qardaşım Maqsud dördüncü sinifdə oxuyanda anamın iki kitabını həyat yoldaşı hərbiçi olan müəlliməsinə verdi. Həmin axşam anam xəbər tutanda bizi məcbur etdi ki, müəllimin evinə gedib kitabları geri alaq. Lakin müəllimə bizim bildiyimiz ünvandan köçdüyündən onu tapa bilmədik. Anam çox kədərlənmişdi. Onda mən kitabın insan həyatında necə mühüm rolu olduğunu və xüsusilə anama necə əziz olduğunu başa düşdüm.

Mənim peşəmlə bağlı olan yeganə hadisə 13 yaşım olanda baş verib. Mən dram dərnəyinə yazılmışdım və biz "Çətin Tapşırıq" adlı tamaşanı təşkil etmişdik. Orada mənə də rol verilmişdi. Lakin hədsiz utancaq olduğumdan həmin rol mənim üçün çox çətin idi. Ola bilsin ki, həmin tamaşada oynamağım gələcək karyerama təsir etmişdir.

Maqsud birinci hekayəsini yazanda 13 yaşı var idi. Bu dəniz quldurları haqda 13 vərəqlik hekayə idi. O hekayəsini başa vuranda hamımız onun ətrafına toplaşdıq və o hekayəsini bizə oxudu. Onda mənim doqquz yaşım var idi. Qardaşımın qabiliyyəti məni heyran etmişdi. Lakin heç ağlıma belə gətirməzdim ki, bir gün mən də onun kimi yazmağa başlayacam.

Düzü mən yazmağa çox gec başlamışam. Birinci hekayəmi yazanda 25 yaşım var idi. O hekayəm 1963-cü ildə "Azərbaycan Gəncliyi" jurnalında nəşr olunmuşdu. Kibernetika sahəsində aspirantura oxuya-oxuya yazmağa başladım.

**Uşaqlığınız indi böyüyən uşaqlarınkından nə ilə fərqlənirdi?**

Biz küçədə böyümüşük. Ona görə də mənim uşaqlığım hələ mənim öz vaxtımda evə qapanan uşaqlarınkından da fərqli olub. Biz yemək pulu qazanmaq üçün işləməyə məcbur olurduq. Küçələr cəmiyyətin müxtəlif təbəqələri ilə dolu olardı.

Digər tərəfdən indi uşaqların həyatı daha təhlükəsizdir. Bizim vaxtımızda şərait pis idi. Həqiqi aclıq hökm sürürdü. Blinı almaq üçün qəzet toplayardıq, 20 qəzet toplasaydıq onları satıb blinı ala bilərdik. O vaxtlar plastik paketlər olmadığından satıcılar satdıqları malları qəzetə bükürdülər.

Arxaya nəzər salanda onu deyərdim ki, bizim uşaqlığımız çox sərt keçib. Lakin ölümdən başqa hər şeyin çarəsi var. Bu baxımdan bizim uşaqlığımız əla idi.

İndi cəmiyyətdə çox qəribə hal müşahidə edilir. Əhalinin əksəriyyəti çox kasıbdır digər qrup isə çox varlıdır. Bu vəziyyət bu günkü körpələrin boyüməsinə çox pis təsir edir. Lakin varlıların da kasıbların üzləşdikləri problemlərdən heç də geri qalmayan narkotik maddələrin qəbulu, spirtli içki kimi problemləri var.

**21-ci əsrə daxil olan gənclərə nə məsləhət verərdiniz?**

Oğlum orta məktəbi qəbul bitirəndə ona bu məsləhəti vermişəm. Bu günkü gənclərə də eyni məsləhəti verərdim. Ona dedim ki, həyatının ən xoşbəxt dövrü başa çatdı. İndi həyatın o biri tərəfini görməyə hazırlaş. Həyatın çətinlikləri ilə ayaqlaşmağa və qalib gəlməyə hazırlaş.

Orta məktəbdə həmişə həyatın məhəbbət, qayğı ilə yoğrulduğunu deyirdilər. Səni inandırmışdılar ki, həyatda ən yaxşı şeylər sənə qismət olacaq—sevib seviləcəksən. Sən də fikirləşirdin ki, öz zəhmətin hesabına karyera qazana bilərsən. Bunun əksi baş verəndə təəcüblənmə və onunla bacarmağa çalış. Heç vaxt sevməyəcəyin qadınla rastlaşacağına hazırlaş. Ən sədaqətli dostun tərəfindən xəyanət görməyə

hazırlaş. Öz ana vətənində ədalətsiz münasibətə hazırlaş. Layiq olduğun şeylərdən imtina etməyə hazırlaş. Və həqiqətən də həyatda müvəffəqiyyətsizliyə uğramaq heç də qeyri-adi deyil.

Bütün bu məyusluqlara baxmayaraq həyatda heç vaxt yaxşılığın mövcudluğuna inamını itirmə. Əmin ol, məhəbbət, həqiqət və xeyirxahlıq mövcuddur. Əgər sən ideal qadınla rastlaşmamısansa, bu o demək deyil ki, sən başqa qadını sevə bilməzsən və sevgi mövcud deyil. Həyatda ən qorxulu faciə ikiüzlülük və ümidsizlikdir, ona görə də heç vaxt inamını itirmə.

Ana torpağınla yaxud hökumətlə problemin varsa, ruhdan düşərək fikirləşmə ki, sən öz xalqını sevməməlisən. Əgər dostlarından biri sənə xəyanət edibsə, fikirləşmə ki, bütün dostlar xəyanətkardır və dostluq məvhumu mövcud deyil. Əgər sevgilin sənə xəyanət edibsə, o demək deyil ki, qadınların hamısı sədaqətsizdir.

Adam bacardığını etdiyi zaman, şərait hər şeyi korlaya bilər. Əldə etmək istədiyimz hər bir şeyin hasil olunmasında ancaq kiçik bir hissə bizim payımıza düşür; qalanı şəraitdən və taledən asılıdır. Tanrı bizə getmək üçün müxtəlif cığırlar göstərir, lakin öz yolumuzu özümüz seçməliyik. Bizdən çox şey asılıdır, digər başqa şeylər var ki, Allah, tale, vəziyyət ya kimsə, yaxud da ki, nəsə tərəfindən təyin olunur. Ona görə də heç vaxt ümumi nəticəyə gəlmək yaxud ümidi itirmək düzgün deyil. Həyatda ən ağır faciə ümidsizlikdir. Nə olur olsun, həyat həyatdır.

**Həyatda ən böyük uğurunuz nədir? Nə ilə ən çox yaddaşlarda qalmaq istərdiniz?**

Statistikaya görə 60 il kişilər üçün orta yaş həddidir. Əgər 60 yaşa çatmışamsa, bu mənim ən böyük nəaliyyətimdir. Əksər uşaqlıq dostlarım artıq həyatını dəyişib—yalnız bir neçəsi yaşayır. Onlardan ikisi sürücüdür, birinin balaca dükanı var, üçüncüsü isə mühəndisdir. Ona görə deyirəm ki, mən həyatdan çox şey qazanmışam.

Adamlar var ki, yalnız bir şey əldə etmək üçün dəridən-qabıqdan çıxırlar, məsələn güləşçilər yaxud boksçular diqqətlərini yalnız bir istiqamətə yönəldir. Lakin pentatlonda tullanmağı, qaçmağı, üzməyi və güllə atmağı bacarmalısan. Mən pentatletəm—yəni həyatda yalnız bir məqsəd arxasınca getmirəm. Mənim üçün ən əsas şey məşğuliyyətlərim arasında tarazlıq yaratmaqdır. Məsələn çox işləyəndə həyatımın başqa məqamlarını ötürdüyüm üçün narahat oluram. Həddən artıq ailə məsələlərinə qapıldıqda, hiss edirəm ki, başqa şeyləri əldən buraxıram.

Həyat mənim üçün üzərində şəkil çəkməli olduğumuz kətandır. Hər kəsin həyatı və işi bu kompozisiyanın mahiyyətini təşkil edir. Bəziləri çəkdikləri şəkil barədə düşünmür. Onlar ancaq məqsədlərinə çatmaq üçün can atırlar. Lakin mənim üçün həyatda nə etdiyim və özümdən sonra nə qoyacağım çox vacibdir. Mən öz kətanımı gözəlliklə doldurmaq istəyirəm. Mən şəklin necə alınacağında maraqlı deyiləm. Nəticə məni maraqlandırmır—məni onda olan gözəllik maraqlandırır. Bu baxımdan, indiyə qədər yaratdıqlarımdan çox razıyam.

Nə ilə xatırlanmağıma gəldikdə isə—öz səmimiyyətimə görə xatırlanmaq istərdim. Sadəcə olaraq, səmimi insan kimi yadda qalmaq istərdim.

Başa çatmaqda olan əsr həqiqətən fəlakətli əsr oldu. Soruş: “niyə?” Sadəcə ona görə ki, bəşəriyyətin elmi və texniki nəaliyyətləri özünün əqli inkişafından çox qabağa gedib. İnsan işlədə bilmədiyi cihazlarla evdə tək buraxılmış uşağa bənzəyir. İnsanın emosional və əqli inkişafı elmi texniki inkişafdan geri qalır.

Demək olar ki, yaratdığımız hər şey təbiətin və bəşəriyyətin qəniminə çevrilir. Biz bu fəlakəti dayandırıb inkişafa ara verməliyik. Bütün biliklərimiz həyatımızı asanlaşdırmaqla bərabər bizə ziyan gətirir. Və rahatlıq insanlığın tənəzzülünə səbəb olur. Ona görə deyirəm ki, 20-ci əsr dəhşətli əsr idi. Gəlin ümid edək ki, gələn əsrdə bu problemlərdən bir neçəsi öz çözümünü tapacaq. Mən özüm 21-ci əsri nikbinlik və ümidlə qarşılayıram.

Rüstəmdən müsahibə 1999-cu ilin dekabrında Məzahir Pənahov və Aynur Hacıyeva tərəfindən alınmışdır.

---

Tərcümə: Aynurə Hüseynova
Redaktə edən və veb üçün hazırlayan: Arzu Ağayeva